

# 1 gündə 21 500 nəfər

## COP29-un ikinci günündəki kütləvilik konfransa olan yüksək marağı və onun qlobal əhəmiyyətini bir daha nümayiş etdirdi
























**Yüksək səviyyədə təşkil olunduğu BMT rəsmiləri tərəfindən də təsdiqlənən COP29-un ikinci günü bir çox tədbirlərlə yadda qaldı.**

Beynəlxalq konfransın ilk günündə təsdiqlənən İqlim Dəyişmələri üzrə Çərçivə Sazişinin Tərəflər Konfransının gündəliyi üzrə ayın 12-də əhəmiyyətli panellər, müzakirələr, sessiyalar baş tutdu.

### Azərbaycan konsensusun tapılmasına töhfə verəcək

Tədbirin ən mühüm hadisəsi - İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Zirvə Toplantısı noyabrın 12-si işinə başladı və bu gün davam edir. Paris Sazişini necə irəli apardıqlarını nümayiş etdirmək üçün toplaşan 80-dən çox dövlət, hökumət başçıları və vitse-prezidentlərin iştirak etdiyi toplantıda milli bəyanatlar verildi.

Prezident İlham Əliyev Liderlər Sammitinin açılış mərasimində çıxışında bir daha vurğuladı ki, Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında konsensusun tapılmasına töhfə verməyə və Qlobal Cənubla Qlobal Şimal arasında əlaqələr qurulmasına çalışacaq.

Açılış mərasimində çıxış edən BMT Baş katibi Antonio Quterreş bütün iştirakçı tərəfləri növbəti iqlim sammitinədək iqlim dəyişikliyi ilə mübarizə məqsədilə ümumi milli iqtisadi fəaliyyət planı hazırlamağa çağırdı. Baş katib qeyd etdi ki, qlobal istiləşmə probleminin həlli üçün üç prioritet müəyyənləşdirilib ki, onların icrası 2030-cu ilədək hər il temperaturda 9 faizlik azalmanı təmin edəcək.

Rəsmi tədbirlərin keçirildiyi "mavi zona"da daha sonra nazirlərin dialoqu, nazirlərin 9-cu toplantısı, enerji məsələsinə həsr olunmuş yüksəksəviyyəli "dəyirmi masa", istixana qazlarına həsr olunmuş COP29 sammiti və Azərbaycan, Braziliya, BƏƏ, Misir, Çin, ABŞ və UNICEF-in təşkilatçılığı ilə bir sıra mövzulara həsr olunan sammitlər, görüşlər baş tutdu.

### COP29-a maraq böyükdür

İqlim sammitinin ikinci günündə də tədbirə marağın yüksək olduğu diqqətdən yayınmırdı. Bunu xüsusən "yaşıl zona"da müşahidə etmək mümkün idi. Belə ki, COP29 sədrliyinin təşkil və idarə etdiyi, müxtəlif maraqlı tərəflərin bir araya gəldiyi, iqlim dəyişmələri ilə bağlı dinamik müzakirələrin aparıldığı və ekoloji çağırışlarla bağlı innovativ həllərin nümayiş olunduğu bu zonaya giriş biletləri ziyarətçilər tərəfindən qısa zamanda əldə edilmişdir.

Müxtəlif sahələrdə dayanıqlılıq və iqlim fəaliyyətləri ilə bağlı bir sıra innovativ təşəbbüs və müzakirələr üçün dinamik platforma olan COP29 "yaşıl zona"sının proqramı iqlim dəyişmələri üzrə həllərin təşviqində gənclərin, eləcə də qadın və yerli icmaların daha geniş iştirakını ehtiva edir. Bununla yanaşı, bu zonada fəaliyyət göstərən dinamik "Extreme Hangout" sahəsi 6-18 yaş arası uşaq və gənc ekoçempionlar üçün nəzərdə tutulmaqla yaradıcı proqram təklif edir. Burada keçirilən müxtəlif mədəniyyət tədbirləri, performans və interaktiv sessiyalar uşaqlar üçün də maraqlı olduğundan, ümumilikdə COP-un kiçikdən böyüyə hər kəsin diqqətini çəkdiyini təsdiqləyirdi.

Bu zonada korporativ dayanıqlılıq və iqlim fəaliyyəti, iqlim keçidi planları: çətinliklər və həll yolları, iqlim ədalətsizliklərinə qarşı mübarizə, iqlim fəaliyyətində yerli gənclərin liderliyi və digər mövzularda panel müzakirələr, sessiyalar keçirildi.

Beləliklə, mötəbər tədbirə evsahibliyi edən Bakı beynəlxalq konfransın ikinci gününü də uğurla geridə qoydu. Biz isə növbəti uğurlu günə hazırlaşmaq üçün konfrans məkanından uzaqlaşırıq. Qarşıdakı günlərdə də iqlim dəyişikliklərinə həsr olunmuş müxtəlif mövzularda yüksəksəviyyəli görüşlərin, panel müzakirələrin, eyni zamanda sessiyaların keçiriləcəyi - Azərbaycanın evsahibliyi etdiyi ən böyük tədbirə şahidlik edən Bakı Olimpiya Stadionunun hava qaraldıqca üçrəngli bayrağımıza bürünməsi əzəməti ilə diqqət çəkirdi.

Qeyd edək ki, dünən COP29 tədbir məkanında 21 500 nəfərin iştirakı müşahidə olunub. COP29-un ikinci günündəki kütləvilik konfransa olan yüksək marağı və onun qlobal əhəmiyyətini bir daha nümayiş etdirdi.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*